# Şair ömrü

## İsa İsmayılzadə-70



**İsa Mustafa oğlu İsmayılzadə 1941-ci il mart ayının 15-də Gürcüstanın Qarayazı rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır. Bədii yaradıcılığa tələbəlik illərində "Aprel çiçəkləri" almanaxında və "Azərbaycan gəncləri" qəzetində çap etdirdiyi ilk şeiri ilə gəlmişdir.**

**Əmək fəaliyyətinə Qardabani orta məktəbində müəllim kimi başlamış, sonralar Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor, Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyasında elmi redaktor, "Ədəbiyyat və İncəsənət" qəzeti redaksiyasında ədəbi işçi, "Ulduz" jurnalı redaksiyasında şöbə müdiri, "Azərbaycan" jurnalı redaksiyasında baş redaktorun müavini vəzifəsində işləmişdir.**

Şeir və poemaları keçmiş SSRİ xalqlarının dillərinə, habelə bir sıra xarici dillərə tərcümə edilmişdir. Sosialist ölkələri yazıçılarının Moskvada keçirilən I Beynəlxalq simpoziumunda, Asiya və Afrika ölkələri yazıçılarının Yurmalada keçirilən seminar-müşavirəsində iştirak etmişdir.

1960-cı ildən mətbuat səhifələrində İsa İsmayılzadə öz səmimi, təbii, məzmunlu şeirləri ilə çıxış etmişdir.

1968-ci ildə İsa İsmayılzadənin "Ulduzların ad günü" adlı ilk şeirlər kitabı çap olundu. Oxucular bu kitabı rəğbətlə qarşıladılar.

İlk şeirlərindən həyatla, həyat hadisələri ilə bağlı olan İ.İsmayılzadənin yaradıcılığında Vətən məhəbbəti, torpaq eşqi, dostluq hissi əsas yer tutur.

Respublika Lenin Komsomolu mükafatı laureatı İ.İsmayılzadənin "Anamla söhbət" kitabı 25 illik yaradıcılıq yolunun yekunu olmaqla bərabər, onun müasir şeirimizdəki yerini, poetik nəfəsinin təravəti və gücünü, əsərlərindəki axtarış meyli və obrazlılığı aydın göstərir.

Boya-başa çatdığı Qarayazı torpağının sehri, pıçıltısı, dinlədiyi ana Kürün ovsunu, doğma ocağa bağlılıq, el-obaya dərin məhəbbət hissi onun şeirlərinin "damarından" qaynar qan kimi axır.

"Torpaq nəğməsi" kitabı onun üçüncü kitabıdır. Kitabdakı şeirlər doğrudan da torpağın nəğməsidir, torpağın ətri ilə doludur. Şairin şeirlərində doğulduğu el-obaya, uşaqlıqda gəzib dolaşdığı, qoynunda boy atdığı meşələrə, düzlərə, tanış cığırlara dərin bir sevgi, həzin bir həsrət duyulur.

**İstedadlı, həssas şairimiz İsa İsmayılzadənin yaradıcılığında Vətən, xalq məhəbbəti öz hərtərəfli əksini tapmışdır.**

**Saqibə MEHRƏLİYEVA**